

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 210 (21.111)

*4 noyabr 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, son vaxtlar bu münasibətlərin dinamik inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın yaxşı perspektivlərinin olduğu qeyd edildi.

İkitərəfli əlaqələrimizin turizm, gənclər, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, hava nəqliyyatı və digər sahələrdə daha da genişləndirilməsi müzakirə olundu.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Fransa Milli Assambleyasının üzvü, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Silvia Mayer Kaybiçi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

## Babək rayonunun Güznüt kəndində quruculuq işləri aparılmışdır

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublikada quruculuq işləri geniş vüsət alıb. Aparılan tikinti işləri təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə infrastrukturun tamamilə yeniləşməsinə səbəb olub. Bu yeniləşmə son illər Babək rayonunda da uğurla həyata keçirilir.

Noyabrın 3-də Babək rayonunun Güznüt kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Güznüt kənd məktəbinin binası yenidən qurulmuşdur





Muxtar respublikada yüksək elmi potensiala və biliyə malik olan ixtisaslı kadrların hazırlanması qarşıda duran başlıca vəzifələrdəndir. Artıq muxtar respublikada təhsilin keyfiyyəti və əhatəliliyi əhəmiyyətli dərəcədə artmış, müasir təhsil şəbəkəsi yaradılmışdır. Babək rayonunun Güznüt kənd tam orta məktəbinin binasında da əsaslı yenidənqurma işləri aparılmışdır.

Noyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 324 şagird yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter otağı, kitabxana, idman zalı, hərbi kabinə, şahmat sinfi və bufet vardır.

Sinif otaqlarına baxış zamanı qeyd olunmuşdur ki, məktəb-valideyn münasibətlərinin düzgün qurulması nəticəsində şagirdlər tədris prosesində çətinlik çəkmir, keçilən dərsləri daha yaxşı mənimsəyirlər. Məktəbin kompüter otağında internetə çıxışı olan 19 kompüter qoşulmuşdur. Bildirilmişdir ki, informasiya texnologiyalarının inkişafı hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən hesab olunur. Digər bir tərəfdən informasiya texnologiyalarının təhsildə tətbiqi müasir biliklərə və bacarıqlara malik olan yeni nəslin formalaşmasına birbaşa təsir göstərir. Ona görə də muxtar respublikanın təhsil sistemində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır.

Məktəbin elektron dərsliklərlə təminatı və elektron lövhəli siniflərin istifadəyə verilməsi dərslərin virtual tədrisinə şərait yaradacaqdır. Distant Tədris Mərkəzinə qoşulan məktəbdə muxtar respublikanın digər təhsil ocaqları ilə tədris mübadiləsinin aparılması, eləcə də muzeylərlə əlaqələrin qurulması təmin edilmişdir. Baxış zamanı ümumtəhsil məktəbləri ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi arasında "Naxçıvan xanlığı" mövzusunda dərs nümayiş olunmuşdur.



Ali Məclisin Sədri pedaqoji kadrların informasiya texnologiyaları üzrə hazırlığının artırılması, bütün fənlər üzrə elektron dərsliklərin hazırlanması, interaktiv tədris imkanlarından geniş istifadə olunması, xüsusilə distant təhsilin inkişaf etdirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Məktəbin kitabxana fondunda 5 mindən artıq kitab var. Şagirdlərə oxuma vərdişlərinin aşılanması onların asudə vaxtının səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıyır.

Şahmat sinfində lazımi avadanlıqlar qoyulmuşdur. Məktəbdə "şahmat" fənninin tədrisi şagirdlərin əqli inkişafına, məntiqi düşünmə qabiliyyətlərinə əhəmiyyətli təsir göstərir. Bütün bunların nəticəsidir ki, şagirdlərin digər fənlərdən təlim göstəriciləri də nəzərəçarpacaq dərəcədə artmışdır.

Fizika kabinəsinə və kimya-biologiya laboratoriyasına baxış zamanı dəqiq elmlərin tədrisində fənlərarası əlaqənin əhəmiyyəti vurğulanmışdır. Bildirilmişdir ki, fiziki, kimyəvi və bioloji hadisələri özündə cəmləşdirən mövzuların qarşılıqlı şəkildə öyrədilməsi şagirdlərdə biliklərin daha dolğun mənimsənilməsinə imkan verir.

Hərbi kabinədə və idman zalında da tədris üçün hər cür şərait yaradılmışdır.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri aparılan yenidənqurma işlərindən sonra Güznüt kənd tam orta məktəbində yaradılan şərait nəticəsində tədrisin düzgün təşkil olunacağını bildirərək demişdir: "Məktəblərdə gələcəyimiz hazırlanır. Bu gələcək yalnız təhsilli deyil, həm də vətənpərvər gənclərdən ibarət olmalıdır. Hər bir şagird, ilk növbədə, əsl vətəndaş kimi yetişdirilməli, gələcəkdə ölkəmizin inkişafında yaxından iştirak etməlidir. Son illər məktəbdə nizam-intizamın və müəllim tələbkarlığının olması nailiyyətlərin qazanılmasına imkan vermişdir. Məktəbin məzunları ali və orta ixtisas məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə təhsil alırlar".

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara təhsildə uğurlar arzulamışdır.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələrin icrası üçün səylə çalışacaqlarını bildirmişlər.

*Ardı 2-ci səhifədə*

# Güznüt kəndində müasir idarəetmə sistemi yaradılmışdır




Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Güznüt Kənd Mərkəzinin açılışında da iştirak etmişdir.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan quruculuq və inkişaf siyasəti muxtar respublikamızda uğurla davam etdirilir. Babək rayonunda görülən işlərin timsalında da bunu görmək mümkündür. Aparılan quruculuq tədbirləri nəticəsində rayon mərkəzi ilə yanaşı, kəndlər də müasirləşir, inkişaf edir. Artıq Güznüt kəndi də muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrilmişdir. Kənd tamamilə qazlaşdırılmış, daimi elektrik enerjisi ilə təmin olunmuş, müasir rabitə sistemi və genişzolaqlı internet şəbəkəsi qurulmuşdur. Kənddə geniş abadlıq işləri görülmüş, yeni kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmiş, məktəb binası əsaslı şəkildə yenidən qurulmuşdur. Elçin Hüseynəliyev yaradılan şəraitə görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənddə aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: “Bu gün Babək rayonunun Güznüt kəndi muxtar respublikanın müasir kəndlərinin sırasına daxil olur. Bu, Azərbaycanın iqtisadi inkişafının göstəricisi olmaqla bərabər, həm də ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir. Sabitlik hər bir ölkənin inkişafında başlıca şərtdir. Çünki sabitlik və inkişaf olan yerdə quruculuq tədbirləri də aparılır. Bu gün ölkəmizdəki sabitlik və inkişafın fonunda genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir. Azərbaycanda müxtəlif sahələrin inkişafını nəzərdə tutan dövlət proqramları qəbul edilir, aparılan quruculuq işlərindən əhalinin bütün təbəqəsinə pay düşür. Bu işlərin həyata keçirilməsi isə, ümumilikdə, ölkəmizin abadlaşmasına xidmət edir”.

Ali Məclisin Sədri demişdir: “Hər bir kənd abadlaşdıqca rayonlar, rayonlar abadlaşdıqca isə ölkəmiz abadlaşır, inkişaf edir. Bu gün Güznüt kəndinin abadlaşması yalnız Babək rayonunun bir hissəsinin deyil, ümumilikdə, ölkəmizin inkişafının göstəricisidir. Bütün bu tədbirlər insanların rahat yaşamasına, problemlərinin vaxtında həll olunmasına, gündəlik ehtiyaclarının ödənilməsinə hesablanmışdır. Güznüt kəndində istifadəyə verilən məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi, yenidən qurulan kənd yolu, su və rabitə sistemləri sakinlərin rahatlığına xidmət edəcəkdir”.

Kəndin müasir görkəminin qorunub saxlanılmasının və abadlaşdırılmasının vacibliyinə diqqəti çəkən Ali Məclisin Sədri demişdir: “Rayonda fəaliyyət göstərən aid dövlət qurumları və kənd əhalisi bu məsələni daim diqqət mərkəzində saxlamalıdır. Dövlət qurumları evlər tikilərkən arxitektura qaydalarına və keyfiyyətə riayət edilməsini, sakinlər tikilənlərin, qurulanların qorunub saxlanılmasını diqqət mərkəzində saxlamalı, kəndin abadlaşmasında bundan sonra da yaxından iştirak etməlidirlər”.



Ali Məclisin Sədri Güznüt kəndində quruculuq işlərinin bundan sonra da davam etdiriləcəyinə və sakinlərin rahat yaşayışının təmin olunacağına əminliyini bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və bələdiyyə üçün iş otaqları, kitabxana, polis sahə və baytarlıq məntəqələri, rabitə və mədəniyyət evləri, 75 yerlik iclas zalı vardır.

Mərkəzin kitabxanası zəngin fonda malikdir. Burada 2 minə yaxın bədii ədəbiyyat toplanmışdır. Rabitə evində isə 512 nömrəlik müasir avtomat telefon stansiyası quraşdırılmış, poçt xidmətinin fəaliyyəti təmin olunmuşdur.

Mərkəzdə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası Güznüt kənd ərazi ilk təşkilatı və bələdiyyə üçün iş otaqları ayrılmışdır. Ərazi ilk təşkilatının 70 üzvü vardır. Onların 26-sı gənclər, 11-i isə qadınlardır.

Ali Məclisin Sədri kənddə əhalinin məşğuliyyəti və məskunlaşması ilə maraqlanmış, müvafiq tapşırıqlar vermişdir.

Kənddə baytarlıq xidməti də nümunəvi təşkil olunmuşdur. Baytarlıq məntəqəsində soyuducu, lazımi dərman preparatları və avadanlıqlar qoyulmuşdur. Baxış zamanı kənddə mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasının əhəmiyyəti vurğulanmışdır.

Kənd mərkəzinin binası eyni zamanda kəndin simasına yeni görkəm verir. Binanın yerləşdiyi ərazidə yaşıllaşdırma işləri görülmüş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

# Güznüt kənd həkim ambulatoriyası yeni binada fəaliyyət göstərəcəkdir





İnsanların sağlamlığının qorunması muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının əsasını təşkil edir. Son illər kənd yaşayış məntəqələrində tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi sahəsində görülən tədbirlər bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Noyabrın 3-də Güznüt kəndində həkim ambulatoriyasının açılışı olmuşdur.

Açılışı bildirən lent kəsildikdən sonra Ali Məclisin Sədrinə səhiyyə ocağında yaradılan şəraitlə bağlı məlumat verilmişdir.

Bildirilmişdir ki, ikimərtəbəli ambulatoriya 11 otaqdan ibarətdir. Burada stomatoloji kabinə, palata, aptek, doğuş, peyvənd, baş həkim, mama, tibb bacısı, qeydiyyat, ginekoloq və manipulyasiya otaqları vardır.

Kabinə və otaqların hər biri müasir səhiyyə avadanlıqları və lazımi dərman vasitələri ilə təmin olunmuşdur. Bu da ambulatoriyada müayinə və müalicə işinin günün tələblərinə uyğun qurulmasına şərait yaradır. Burada səyyar tibb avadanlıqlarının qoyulması isə lazımi tibbi-profilaktik tədbirlərin vaxtında həyata keçirilməsinə imkan verir. Hazırda səhiyyə müəssisəsində 8 tibb işçisi çalışır.

Ali Məclisin Sədri kənddə tibbi-profilaktika xidmətinin düzgün təşkil olunması, dispanserizasiyanın aparılması və əhali arasında səhiyyə maarifinin gücləndirilməsi ilə əlaqədar tapşırıqlar vermişdir.

# Kənddə yeni xidmət mərkəzi tikilmişdir

Həmin gün Güznütdə yeni xidmət mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmişdir.

Bildirilmişdir ki, burada sakinlərin zəruri məişət ehtiyaclarının və gündəlik tələbatlarının ödənilməsi üçün ərzaq və sənaye malları mağazaları, bərbərxana, qadın gözəllik salonu və ət satışı yeri fəaliyyət göstərir. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Kənd ağsaqqalı Heydər Mirzəliyev sakinlər adından minnətdarlıq edərək demişdir ki, bu gün Güznüt kəndi qəsəbə görkəmi almışdır. Kənddə insanların rahat yaşayışı üçün hər cür şərait vardır. Artıq ölkəmizin sürətli inkişafı hər bir sakinin həyatında hiss olunur. Qurub-yaratmaq əzmi ilə çalışan insanlar daim dövlətin diqqətini üzərlərində hiss edirlər. Bütün bunlar ümummilli liderimiz tərəfindən əsası qoyulan siyasi xəttin həm ölkəmizdə, həm də muxtar respublikamızda uğurla davam etdirilməsinin nəticəsidir.

*Ardı 3-cü səhifədə*






Ali Məclisin Sədri demişdir ki, bu gün Güznüt kəndində uşaqların yaxşı təhsil alması, sakinlərə lazımi tibbi xidmətin göstərilməsi, onların sosial problemlərinin həlli üçün kompleks tədbirlər həyata keçirilir. Bundan başqa, kənddə əhalinin keyfiyyətli rabitə xidməti ilə təmin olunması, dayanıqlı elektrik enerjisi və təbii qazın verilməsi, içməli və suvarma su təminatı istiqamətində müvafiq tədbirlər görülmüşdür. Dövlətimiz tərəfindən fərdi təsərrüfatların inkişafı daim dəstəklənir, güzəştli şərtlərlə kreditlər verilir. Bütün bunlar isə yaşayış məntəqələrinin inkişafı ilə yanaşı, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına, eləcə də kəndin gələcək inkişafına xidmət edir. Ona görə də sakinlər yaradılan bu şəraitdən səmərəli istifadə etməli, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər.

Kənddə aparılan abadlıq işləri ilə tanışlıq zamanı Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, 800 metrlik kənddaxili avtomobil yoluna asfalt örtük salınmış, 2 su keçidi tikilmiş, 400 metr uzunluğunda beton kanal çəkilmişdir. Həmçinin rabitə dirəkləri yenilənmiş, 600 metr fiber-optik, 600 metr yeraltı və 2 min 400 metr məsafədə yerüstü kabellər çəkilmişdir. Elektrik dirəkləri və 4 kilometrdən artıq elektrik xətti də dəyişdirilmiş, yeni tikililərə 350 metr məsafədə qaz xətti çəkilmişdir. Kəndin su təchizatı da yaxşılaşdırılmış, 300 metrlik içməli su xətti çəkilmiş, yeni drenaj sistemi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvan: Azərbaycanın vətənpərvərlik beşiyi

***Oktyabrın 4-ü və 5-də IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının bir qrupu muxtar respublikada səfərdə olmuşdur. Səfər zamanı qonaqlar Naxçıvanın görməli yerləri, qədim tarixi abidələri və müasir inkişaf səviyyəsi ilə yaxından tanış olmuşlar. Naxçıvan forum iştirakçılarında dərin təəssürat yaratmışdır. Belə ki, forum iştirakçıları xarici ölkələrdə nəşr olunan mötəbər qəzet və jurnallarda, xəbər portallarında muxtar respublika haqqında yazdıqları məqalələrlə çıxış edirlər.***

***Humanitar Forum iştirakçısı, Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist Peter Tasenin Naxçıvana həsr etdiyi və "Foreign Policy News" (Xarici siyasət xəbərləri) portalında yayılan "Ordubad: Avroasiyanın ürəyində qədim şəhər" məqaləsini qəzetimizin ötən nömrələrində dərc etmişdik. Tədqiqatçı kimi də fəaliyyət göstərən Peter Tase Amerikanın ispandilli "Eurasiahoy.com" xəbər portalında növbəti məqalə ilə çıxış etmişdir. Həmin məqaləni oxuculara təqdim edirik:***





4-5 oktyabr 2014-cü il tarixdə müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyevin vətəni olan Naxçıvan Muxtar Respublikasına səfər etmək mənim üçün böyük şərəf idi. Qədim tarixə malik olan bu şəhərin inkişafını sözlə təsvir etmək mümkün deyil. Çünki şəhər Azərbaycan tarixinin və vətənpərvərliyinin ürəyi hesab olunur.

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycanın qədim tarixi və zəngin arxeoloji mənbələrinin, mədəniyyətinin, qədim adət-ənənələrinin və tarixi humanizminin öyrənilməsi baxımından mühüm yer hesab olunur. Əzəli türk torpağı olan Naxçıvan həm də bəşər sivilizasiyasının beşiyi sayılır. Burada qədim zamanlardan bəri yerli əhali təsərrüfatın müxtəlif sahələri ilə məşğul olmuş, Neolit dövründə incəsənətin müxtəlif sahələri inkişaf etdirilmişdir. "Naxçıvan" sözünün mənası çox qədimə dayanır. Araşdırmalar zamanı aydın olmuşdur ki, "Naxçıvan" sözü tarixin müxtəlif dövrlərində "Nuhçıxan", "Naksuana" və ya "Naxç", fars ədəbiyyatında isə "Nəxşi-cahan" kimi işlədilmişdir. Qədim türk mənbələrində isə "Naxçıvan" adı savadlı və müdrik millət mənasını verir.

5 min ildən artıq yaşı olan Naxçıvan Avropa və Asiya arasından keçən Böyük İpək Yolunun üzərində yerləşir. Marko Polo XIII əsrdə bu ərazidən keçmişdir. Naxçıvanda Tunc və Daş dövrlərinə aid tarixi yerlər vardır. Daşlara həkk olunmuş yeddi minillik rəsmlər mövcuddur. Zəngin mədəniyyətin olduğunu sübut edən qədim şəhər qalıqları bu günə qədər gəlib çatıb. Bütün bunlar Naxçıvanın insan cəmiyyətinin inkişafındakı rolunu bir daha sübut edir. Böyük İpək Yolu da daxil olmaqla mühüm ticarət marşrutları bu ərazidən keçdiyinə görə Naxçıvan əlverişli strateji mövqeyə malikdir. Naxçıvanda ticarətin çiçəklənməsi, mədəniyyətin və bu münbit torpaqlarda kənd təsərrüfatı məhsullarının yetişdirilməsi tarixən qonşu ölkələrin marağını cəlb etmişdir.



Naxçıvan minilliklər boyu digər dövlətlərin tərkibinə daxil edilmişdir. Lakin buna baxmayaraq, qədim diyar inkişafdan kənarda qalmamışdır. 1747-ci ildən 1828-ci ilə qədər Naxçıvan müstəqil şəkildə idarə olunmuşdur. Sonralar rus imperiyasının nəzarətində olan Naxçıvan Sovet Rusiyasının iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında 1921-ci ilin 16 martında imzalanan Moskva və həmin ilin 13 oktyabrında imzalanan beynəlxalq Qars müqaviləsindən sonra Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi təsdiq olunmuş və sərhədləri müəyyənləşdirilmişdi.

1905-ci ildə Naxçıvan Ermənistanla Azərbaycan arasında münaqişə mövzusu olmuşdu. 1917-ci ildə isə ermənilər Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etmişlər. Azərbaycan Xalq Cümhuriyyətinin yaranma ərəfəsində, 1917-ci il aprelin 15-də Bakıda Qafqaz Müsəlmanları Konqresində federasiya yaratmaqla müsəlmanlara ərazi muxtariyyəti verilməsi ideyası irəli sürüldü. Həmin ilin yayında Naxçıvan ərazisində dövlət idarəetmə orqanları yaradılmışdır. 1918-ci ilin əvvəllərində erməni daşnak silahlı dəstələri Naxçıvanda böyük qırğınlar törətdilər. Bu vəziyyətdə Naxçıvan Milli Komitəsi yalnız Türkiyədən yardım ala bilərdi. Xəlil bəyin başçılığı ilə Türk ordusu kömək üçün Naxçıvana gəldi. 1918-ci ilin noyabrında burada Araz-Türk Respublikası yaradıldı. 1 milyon əhalisi və təxminən, 16 min kvadratkilometr ərazisi olan respublikanın paytaxtı Naxçıvan şəhəri idi. Onun ərazisinə Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və digər rayonlar daxil idi. Lakin Birinci Dünya müharibəsində Türkiyənin məğlub olması, Mudros sülh müqaviləsinin bağlanması Türk qoşunlarının Azərbaycan və Naxçıvandan çıxarılmasına səbəb oldu. Sovet İttifaqı dövründə isə İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Naxçıvan torpaqlarının qorunması üçün Moskva və Qars müqavilələri vacib idi. Sovet İttifaqı dövründə Naxçıvan ərazisinin bir hissəsi Ermənistana verildi və Türkiyə Respublikası ilə mədəni və siyasi əlaqələri tamamilə dayandırıldı.

Azərbaycan və onun ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikası müstəqillik üçün uzun müddət mübarizə apardı. 1990-cı ildə Naxçıvan MSSR Ali Soveti SSRİ-dən çıxmaq qərarına gəldi. Əslində, bu, SSRİ-nin dağılmasının başlanğıcı idi. Həmin dövrdəki siyasi proseslər, Dağlıq Qarabağdakı uzunmüddətli müharibə Naxçıvan iqtisadiyyatına mənfi təsir göstərmişdi. Bu zaman Naxçıvanın vəziyyəti ağır təhlükədə idi. Naxçıvanın daim Ermənistan tərəfindən işğal edilmə təhlükəsi var idi. 1990-cı il iyulun 22-də Azərbaycanın böyük lideri Heydər Əliyevin Moskvadan gəlişi Azərbaycanın ərazi bütövlüyü və doğulduğu Naxçıvan torpağının müdafiəsi üçün təminat oldu. Heydər Əliyev aktiv siyasətə qayıdaraq Naxçıvan və Azərbaycan parlamentinin üzvü, 1991-ci ilin sentyabr ayında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Onun rəhbərliyi və qətiyyətli iradəsi sayəsində Naxçıvan parlamentinin tarixində ilk dəfə milli dövlətçiliyin bərpası yolunda mühüm addımlar atıldı. Üçrəngli bayraq qəbul edildi. Ermənistan tərəfindən blokadaya alındığına görə, əhalinin rifahı üçün Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının İran və Türkiyə ilə münasibətlərinin yaxşılaşdırılmasına böyük önəm verdi. 1992-ci ildə Naxçıvanla Türkiyə və İran arasında Araz çayı üzərində körpülər tikildi, Türkiyə, İran və Naxçıvan arasında strateji əməkdaşlığın yaradılması haqqında protokol imzalandı.

Azərbaycanın bu regionu tarixən müharibələrdən, ermənilərin azərbaycanlı əhaliyə qarşı biokimyəvi silahlardan istifadə etdiyi uzunmüddətli silahlı münaqişə və təcavüzlərindən əziyyət çəkmişdir. Bu gün Naxçıvan Azərbaycan türklərinin vətənidir. Ermənistan tərəfindən blokadada olmasına baxmayaraq, Naxçıvan dinamik inkişaf edir. Belə davam etsə, bu şəhər öz müasir memarlığı ilə Qafqazın meqapolisinə çevriləcək.

## Kənd təsərrüfatı işçiləri peşə bayramlarını qeyd ediblər



*Noyabrın 1-də Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq muxtar respublikada kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərdən danışıb.*

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirinin müavini Sahib İbrahimli çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən aqrar islahatlar Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının, eləcə də emal sənayesinin inkişafına etibarlı zəmin yaradıb. İlk dəfə 1992-ci ildə başlanılan və 2000-ci ildə başa çatdırılan torpaq islahatları muxtar respublikanın 205 kəndini və 132 təsərrüfatını əhatə edib, 72 min 758 ailəyə və 241 min 46 nəfərə 56 min 372 hektar torpaq sahəsi verilib. Həyata keçirilən islahatlar nəticəsində əkinçiliyin inkişafında dönüş yaranıb, 2014-cü ilin məhsulu üçün 60 min 829 hektar sahədə əkin işləri həyata keçirilib. Bu, 1991-ci ilin məhsulu üçün əkilmiş sahədən 3,2 dəfə çoxdur.

Qeyd olunub ki, cari il oktyabr ayının 1-nə olan məlumata əsasən, muxtar respublikada 109 min 624 ton dənli və dənli-paxlalı, 4225,5 ton dən üçün qarğıdalı, 662,8 ton dən üçün günəbaxan, 63752,8 ton tərəvəz, 41405,5 ton kartof, 34338,9 ton bostan məhsulları, 34 min 495 ton meyvə, 9427,2 ton üzüm istehsal olunub. Əhalinin mövsümi vaxtlarda tərəvəz məhsulları ilə təmin edilməsi üçün ümumi sahəsi 52 min 316 kvadratmetr olan 12 istixana kompleksi yaradılıb.

Heyvandarlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən də danışan nazir müavini bildirib ki, cari ilin ilk 9 ayı ərzində iribuynuzlu mal-qaranın baş sayı 109 min 822 başa, xırdabuynuzlu heyvanların sayı isə 668 min 933-ə çatdırılıb. Bundan başqa, muxtar respublikada iribuynuzlu mal-qaranın cins tərkibini daha da yaxşılaşdırmaq və məhsuldar mal-qaranın xüsusi çəkisini artırmaq məqsədilə bu günədək "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1688 baş yüksək məhsuldar düyələr gətirilərək sahibkarlara satışı təmin edilib. Həyata keçirilən aqrar tədbirlər nəticəsində tələbatın, əsas etibarilə, yerli istehsal hesabına ödənilməsinə nail olunub. 2014-cü ilin ilk 9 ayı ərzində muxtar respublikada 270 milyon 668 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz çoxdur.

Tədbirdə nazirliyin şöbə müdiri Əsgər Həsənovun və Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin baş direktoru Bəhruz Bayramovun çıxışları olub.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunan əməkdaşlara nişanlar təqdim edilib. Təltif olunanlar onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirib, bundan sonra da səylə çalışacaqlarına söz veriblər.

✍ **Səbuhi HƏSƏNOV**

*Məhərrəm ayı Hicri təqvimi ilə yeni ilin ilk ayıdır. Məhərrəm ayı böyük və əzəmətli aydır. Allah-Taala "Qurani-Kərim"in "Ət-Tövbə" surəsinin 36-cı ayəsində buyurur ki: "Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir. Ona görə də həmin aylarda özünüzə zülm etməyin".*

## Aşura gününün hikməti

Məhərrəm ayı İlahi bərəkət və bolluğun coşduğu bir aydır. Allahın ayı, günü və ili olmaz, ancaq Allahın rəhmətinə çatmaq üçün edilən duaların qəbul olunduğu ay olduğu üçün Peyğəmbərimiz tərəfindən məhərrəm ayı "Allahın ayı" olaraq ifadə edilmişdir.

Aşura günü isə məhərrəm ayının 10-cu günüdür. Aşura gününün Allah qatında ayrı bir yeri vardır. Bu gündə Cənabu-Haqq on peyğəmbərinə on növ mükafat təqdim etmişdir. Bu ayda oruc tutmaq çox savabdır. Məhərrəm ayının digər aylar arasında ayrı bir yeri olduğu kimi, Aşura günü də digər günlər içində daha mübarək və bərəkətli gün kimi bilinməkdədir. "Qurani-Kərim"in "Fəcr" surəsində "On gecəyə and olsun" ifadəsi ilə Ulu Tanrı bu gecələrə and içərək onların üstünlüyünü və bərəkətini bildirmişdir. Peyğəmbərimizin hədislərində də bu günə bu adın verilməsinin hikməti, o gündə Cənabu-Haqqın on peyğəmbərinə aşağıda qeyd olunan mükafatları lütf etməsindədir.

*1. Allah Musa Peyğəmbərə Aşura günündə bir möcüzə lütf etmiş, dənizi yararaq Musa Peyğəmbəri və qövmünü xilas etmiş, Firon ilə ordusunu sulara qərq etmişdir.*

*2. Nuh Peyğəmbərin gəmisi Cudi dağının üzərində Aşura günündə dayanmışdır.*

*3. Yunis Peyğəmbər balığın qarnından həmin gün xilas olmuşdur.*

*4. Adəm Peyğəmbərin tövbəsi Aşura günü qəbul edilmişdir.*

*5. Yusif Peyğəmbər qardaşlarının atmış olduğu quyudan Aşura günü çıxarılmışdır.*

*6. İsa Peyğəmbər o gün dünyaya gəlmiş və o gün səmaya yüksəldilmişdir.*

*7. Davud Peyğəmbərin tövbəsi o gün qəbul edilmişdir.*

*8. İbrahim Peyğəmbərin oğlu İsmayıl Peyğəmbər o gün doğulmuşdur.*

*9. Yaqub Peyğəmbərin oğlu Yusif Peyğəmbərin həsrətindən bağlanan gözləri o gün görməyə başlamışdır.*

*10. Əyyub Peyğəmbər o gün şəfaya qovuşmuşdur.*

Beləliklə, mənalı və qüdsi hadisələrin ildönümü olan bu mübarək gün və gecə səadət əsrindən bəri müsəlmanlar tərəfindən həmişə qeyd olunmuşdur. Bu günlərdə ibadətə daha çox zaman ayıranlar başqa günlərə nisbətdə daha çox xeyir tapmışlar. Cənabu-Haqqın bu günlərdə edilən ibadətləri, tövbələri qəbul edəcəyinə dair hədislər mövcuddur.

Məhərrəm ayı və Aşura günü əhli-kitab olan xristian və yəhudilər tərəfindən də müqəddəs sayılarmış. Məhəmməd Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra orada yaşayan yəhudilərin oruclu olduqlarını öyrəndi və "Bu, nə orucudur?" – deyə soruşdu.

Yəhudilər "Bu gün Allahın Musanı düşmənlərindən qurtardığı, Fironu dənizdə boğdurduğu gündür. Musa Peyğəmbər şükür olaraq bu gün oruc tutmuşdur", – dedilər.

Aşura günü tək əhli-kitab arasında deyil, Nuh Peyğəmbərdən, İslamdan əvvəl – cəhalət dövründə də ərəblər arasında İbrahim Peyğəmbərdən bəri müqəddəs bir gün olaraq bilinmiş və həmin ay oruc tutulmuşdur.

Aşura gününün mənəvi aydınlığı üzərində Kərbəla qaranlığı da görünməkdədir. Hicrətin 61-ci ilinin (miladi 680-ci il) məhərrəm ayının 10-cu günündə Həzrəti Hüseyn 55 yaşında ikən Sinan bin Ənəs adlı bir xain tərəfindən Kərbəlada şəhid edilmişdir. Bu qəddarlıq və zülmün arxasında Əməvi xəlifəsi Yezid, onun Kufə valisi İbni Ziyad dayanır. Yarım əsr əvvəldən Peyğəmbərimiz tərəfindən xəbər verildiyi bu faciəvi hadisə Həzrəti Hüseyni Cənnət gənclərinin əfəndisi olma dərəcəsinə ucaltmışdır.

Müsəlman ümmətinin tarixinə kədərli, lakin eyni zamanda insanlara qeyrət, qürur bəxş edən bir hadisə kimi daxil olmuş Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, həzrəti Hüseynin həyat və mübarizəsinin yad edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, Hüseynin mübarizəsində Vətən sevgisi, əqidəyə sadiqlik uğrunda səfərbərolma hikməti vardır. Bu mübarizə bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, torpağa bağlılığın, işğal olunmuş ərazilərin azad edilməsi uğrunda fədakarlıq və dəyanətə çağırışın təcəssümüdür.

Məhəmməd Peyğəmbərin buyurduğu kimi, müharibələrin qadağan olunduğu bu ayda, təəssüflər olsun ki, onun nəvəsinə qarşı edilən zülm də məhz bu aya təsadüf etmişdir. Lakin bir məqamı da vurğulamaq gərəkdir ki, illər boyu məhərrəm ayında, xüsusilə də Aşura günündə xürafi, dinimizlə uyğunlaşmayan bəzi hərəkətlərə yol verməklə müqəddəs günün mahiyyətinin və həzrəti Hüseyn məktəbinin qeyd olunan əsl məqamlarından kənarda qalmışıq. Aşura günündə ediləcək ən yaxşı ibadətlər oruc tutmaq, İmam Hüseyn məktəbinin və şəhadətinin əsl mahiyyətini öyrənməyə çalışmaq, bütün şəhidlərimizin ruhunu bir daha yad etməkdən ibarətdir.

Həzrəti Hüseyn şəhidlik mükafatının ən uca mərtəbəsinə çatmışdır. Qədər hökmünə inanan hər bir mömin bu hadisəyə kədərlənər, ancaq etiqadını və soyuqqanlılığını itirməz; duyğular səhvlərə, özünə və digərlərinə qarşı şiddətə aparmamalıdır. Çünki meydana gələn bütün hadisələr əzəli təqdirin bir hökmüdür. Bu baxımdan bunu yas mərasimi halına çevirmək dinimizin etiqad və inancına ziddir.

**Vüqar BABAYEV**
**Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi**



*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində şair Qafar Qəribin "Qədim-yeni Naxçıvanım" kitabının təqdimat mərasimi keçirilib. Təqdimat mərasimini AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq kitab haqqında təəssüratlarını bildirib və burada yer alan vətənpərvərlik hisslərini tərənnüm edən şeirləri yüksək qiymətləndirib.*

## "Qədim-yeni Naxçıvanım" kitabının təqdimatı olub



Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigarın kitabın ədəbi-bədii təhlilindən ibarət məruzəsi dinlənilib. Bildirilib ki, gənc şair Qafar Qəribin "Qədim-yeni Naxçıvanım" adlı şeirlər kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə nəşr olunub. Bu kitab muxtar respublikamızın muxtariyyət qazanmasının 90 illik yubileyinə ən gözəl poetik hədiyyədir.

Tədbirdə filologiya elmləri doktoru, professor Hüseyn Həşimli "Möhtəşəm intibahın poetik ifadəsi" adlı məruzəsində Qafar Qəribin kitabında yer alan "Naxçıvan: dünən və bu gün", "Müqəddəslər diyarı", "Yeniləşən Naxçıvan", "Bugünkü Naxçıvan nağılvaridir", "Möcüzədir başdan-başa Naxçıvan", "Naxçıvanın gecələri", "Güllü şəhər" və sair kimi şeirlərində təsvir olunan sosial, iqtisadi, mədəni həyatın yüksəlişindən, Naxçıvanın keçdiyi uğurlu inkişaf yolundan bəhs edib.

Pedaqogika elmləri doktoru Elbəyi Maqsudovun "Qədim-yeni Naxçıvanım" kitabında vətənpərvərlik", Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynovun "Qədim-yeni Naxçıvanım" poemasında yurda bağlılıq və sevgi motivləri" adlı məruzələri dinlənilib.

Bildirilib ki, Naxçıvan ədəbi mühitində öz imzası ilə seçilən istedadlı şairlərimizdən olan gənc şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü Qafar Qəribin "Qədim-yeni Naxçıvanım" kitabına 2 poema – "Qədim-yeni Naxçıvanım", "Əlincə" və 31 şeir daxildir.

Şairin "Qədim-yeni Naxçıvanım" poemasında ulu diyarımızın gündən-günə dəyişən siması, qurub-yaradan insanların əzmi poetik bir dillə vəsf edilir. Poemanın "Baş meydanda düşüncələr" bölməsi ulu öndərimizə həsr olunub.

Sonda müəllif çıxış edərək kitabın nəşrinə və təqdimat mərasiminin keçirilməsinə görə minnətdarlığını bildirib.

✍ **Nərgiz İSMAYILOVA**

## "Açıq Əyləncəli Futbol Məktəbləri" layihəsi uğurla həyata keçirilir



*Ötən həftə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşkilatçılığı ilə Şərur rayonundakı Olimpiya-İdman Kompleksində tədbir keçirilib.*

"Açıq Əyləncəli Futbol Məktəbləri" layihəsi üzrə keçirilən tədbirdə AFFA-nın vitse-prezidenti, millət vəkili Rauf Əliyev, Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti, Milli Məclisin deputatı Xanlar Fətiyev də iştirak edib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov gənclərin idmana olan marağından danışıb və məktəblərdə bu cür tədbirlərin keçirilməsinin zəruriliyini vurğulayıb: "Bu cür tədbirlərin təşkili muxtar respublikada idmana və idmançılara göstərilən qayğıdan irəli gəlir. Hazırda muxtar respublikada minlərlə uşaq futbolun sirlərini öyrənir. Məqsədimiz butipli məktəblərin sayını artırmaq, uşaqları bu idman növünə cəlb etməkdir. Bunun üçün muxtar respublikada hər cür şərait var. İnanırıq ki, gələcəkdə bu uşaqlar Azərbaycan futboluna öz töhfələrini verəcəklər".

Sonra Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Xanlar Fətiyev və AFFA-nın vitse-prezidenti Rauf Əliyev çıxış edərək Azərbaycan idmanının nailiyyətlərindən danışıblar.

Tədbirdə 150-yə yaxın uşaq iştirak edib. Onlar məktəb tərəfindən pulsuz ləvazimatlarla da təmin olunublar.

Qeyd edək ki, təşkil olunan bu tədbirin əsas məqsədi müxtəlif sosial təbəqədən olan uşaqların xüsusi futbol konsepsiyasından istifadə etməklə onları ümumi maraq naminə birləşdirməkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

### Bildiriş

"Veteran" Kiçik Müəssisəsinin (VÖEN-0200059331) qeydiyyat sənədləri, möhür və künc ştampı itdiyindən etibarsız sayılır və müəssisənin fəaliyyəti dayandırıldığından ləğv olunur.

### İtmişdir

Qasımova Sevda Nadir qızının adına 1995-ci ildə Naxçıvan Musiqi Kolleci tərəfindən verilmiş AB-II seriyalı, 000651 nömrəli fərqlənmə diplomu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 920